**“Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə**

**Azərbaycan RESPUBLİKASININ Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1992-ci il, № 23, maddə 1013; Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1997-ci il, № 1, maddə 6, № 3, maddə 226, № 4, maddə 280) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

10-cu maddənin.

2-ci bəndinin dördüncü hissəsində «müvafiq sənəd verir (əlavə № 1)» sözləri «vergi ödəyicisinin indentifikasiya nömrəsini (VÖİN) verir» sözləri ilə əvəz edilsin;

2-ci bəndinə aşağıdakı məzmunda altıncı hissə əlavə edilsin:

«Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin uçota alınması qaydalarını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir».

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

**Bakı şəhəri, 16 may 2000-ci il**

**№ 882-IQD**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu $g 2000.- 31 iyul, № 7.- S. 2749.**